# *PEŞƏ TƏHSİLİNİN VƏ PEŞƏYÖNÜMÜNÜN PROBLEMLƏRİ*
# *ПРОБЛЕМЫ ПРОФЕССИОНАЛЬНОГО ОБРАЗОВАНИЯ И ПРОФЕССИОНАЛЬНОГО РАЗВИТИЯ*
# *PROBLEMS OF PROFESSIONAL EDUCATION AND PROFESSIONAL DEVELOPMENT*

UOT 371

***Zəhra Bilal qızı Muradova***
*pedaqogika elmləri doktoru*
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun aparıcı elmi işçisi*

## PEŞƏ TƏHSİLİ ZAMANIN TƏLƏBİDİR

***Захра Билал гызы Мурадова***
*доктор педагогических наук*
*ведущий научный сотрудник Института Образования Азербайджанской Республики*

## ПРОФЕССИОНАЛЬНОЕ ОБРАЗОВАНИЕ – ТРЕБОВАНИЕ ВРЕМЕНИ

***Zahra Bilal Muradova***
*doctor of pedagogical sciences*
*leading research at the Institute of Education of the Republic of Azerbaijan*

## PROFESSIONAL EDUCATION IS THE NEED OF TIME

*Əmək insanın ən böyük nemətidir,*
*həyatı və inkişafı üçün zəruri şərtdir.*
***HEYDƏR ƏLİYEV***

**Xülasə.** Məqalədə sənətkarlıq haqqında məlumat verilir, peşə təhsili ilə bağlı ailədə valideynlərin, məktəbdə müəllimlərin rolundan, həmçinin valideynlərin və müəllimlərin birgə fəaliyyətindən bəhs olunur. Eyni zamanda peşəyə marağın artırılması üçün təlim prosesində peşə təhsilinin yaradıcı keyfiyyətlərinin inkişaf etdirilməsi yolları nəzərə çatdırılır.

***Açar sözlər:*** *Peşə təhsili, əmək təlimi, sənətkarlıq, təhsil islahatı maarifləndirici tədbirlər, özünütəyinetmə, müəllim peşəkarlığı.*

**Резюме.** В статье представлена информация о ремеслах, роли родителей в семье, учителей в школе и совместной деятельности родителей и учителей по отношению к профессиональному образованию. При этом в целях повышения интереса к профессии учитываются пути развития творческих качеств профессионального образования в процессе обучения.

***Ключевые слова:*** *профессиональное образование, трудовое обучение, ремесло, образовательная реформа, просветительские мероприятия, самоопределение, профессионализм педагога*

**Summary.** The article provides information about crafts, the role of parents and teachers in school and the role of both parents and teachers in vocational education. At the same time, in order to increase interest in the profession, ways of developing the creative qualities of vocational education in the training process are brought into consideration.

***Keywords:*** *Vocational education, labor training, craft, educational reform, educational events, self-determination, teacher professionalism.*

Ağsaqqal babalarımızın, ağbirçək nənələrimizin bizə miras qoyduğu adət-ənənələrindən biri övladına sənət öyrətmək, onları peşəyönümü istiqamətində tərbiyə etməkdir. Kərpickəsən qocadan tutmuş xalça, kilim toxuyan xatunlarımızadək sənətkarlıq, mükəmməl peşə sahibi olmaq xalqımızın ən sevimli vərdişi olub, çünki çörəyi gördüyü işdən çıxıb. "O ruzi qazanardı hər gün kərpic kəsərək" deyən dahi Nizami də ulu əcdadlarımızın peşəkarlığından, sənətkarlığından dönə-dönə bəhs edib. Bununla bildirib ki, daima çalışdığı peşəsi olanın hər zaman çörəyi olub. Qızlarımızın cehizinin tacı utancaqlıq idisə, xalça, kilim toxumağı bacarmaq qabiliyyəti də onların yaxşı evdarlığından xəbər verirdi.

Məlumdur ki, keçmiş dövrlərdən dulusçuluqla məşğul olub saxsı qablar, kaşi-kuzələr, çini qablar düzəltmək, bənnalıq, əl işləmələri, tikmələr, loğmanlıq, təbii yollarla bitkilərdən dərman hazırlamaq, müdafiə məqsədi ilə silahlar-qılınc, qalxan, ox-yay və məişət üçün alətlər, bəzək əşyaları üzük, sırğa, muncuq düzmək və s. bu kimi sənətlər mövcud olub. Tarix boyu yeni nəslin insanları əvvəlki nəsillərin mənsub olduqları bu cür peşələrin hesabına yaradılan sənət əsərlərini qoruyub saxlayaraq gələcək nəsillərə miras qoyublar. Təbiidir ki, bütün peşə sənətləri zaman keçdikcə təkmilləşir, inkişaf edir və yaradılan sənət əsərlərində müəyyən yeniliklər əks olunur.

Xalqımız bu gün də öz ənənələrinə sadiqdir. Belə ki, bu gün sənət və peşəyə məhəbbət əvvəlki dövrlərdə olduğu kimi yalnız evdə, ailədə deyil, təlim-tərbiyə ocaqlarında da aşılanır, valideynlərin və müəllimlərin birgə səyi, fəaliyyəti nəticəsində həyata keçirilir. Bu baxımdan təhsil sistemi qarşısında çox mühüm vəzifələr durur. Tədris müəssisələrində məktəblilərin əmək qabiliyyətini yüksəltmək, hər hansı bir peşəyə marağı artırmaq müəllimlərin əsas məqsəd və vəzifələrindən sayılır. Lakin unutmaq olmaz ki, peşəyönümü təlimi zamanı şagirdlərə zəruri əmək mədəniyyətinin aşılanması çox mühüm rol oynayır.

Artıq uşaqların maraq və bacarıqlarının hansı istiqamətdə olduğu evdə valideynlər, məktəbəqədər müəssisələrdə və təhsil ocaqlarında isə tərbiyəçilər, müəllimlər tərəfindən müəyyənləşir. Başqa sözlə məktəbəqədər müəssisələrdə bu bacarıqlar tərbiyəçilər tərəfindən müəyyən edilməli, məktəbdə isə müəllimlər onların həmin istiqamətdə inkişafına əlverişli üsullar və yollarla yardımçı olmalıdırlar. Lakin bəzən məktəbli uşaqların müxtəlif fənlərlə tanışlığından sonra onlarda bu maraq istiqamətləri dəyişə bilir. Bunu da müəllimlər müəyyənləşdirə və şagirdlərin həmin istiqamətdə inkişafına nail ola bilərlər. Bir sözlə bu istiqamətdə bütün məsuliyyət valideynlərlə müəllimlərin üzərinə düşür. Zaman keçdikcə uşaqlar bu sahədə mətin addımlar atır, püxtələşir və peşəyönümü istiqamətində tərbiyə olunurlar. Bəs nə üçün bu məsələlərin həyata keçirilməsində xeyli çatışmazlıqlar və uyğunsuzluqlar mövcuddur. Araşdırmalar nəticəsində gəldiyimiz qənaətlər aşağıdakılardan ibarətdir:

1. Məktəblərdə maddi-texniki vasitələrin kifayət qədər olmaması;
2. Məktəblərdə dərnəklərin yetərincə fəaliyyət göstərməməsi;
3. Uşaqlarda dərs yükünün çoxluğu və ağırlığı;
4. Məktəblərdə zəruri peşələrin təbliğ olunmaması;
5. Müəllim peşəkarlığına diqqətin azalması.

Müstəqil ölkəmizdə aparılan islahatlar, dünyəvi xarakter alan neft müqavilələri və digər elmi-texniki yeniliklər həyata qədəm qoyan hər bir insandan yalnız yüksək nəzəri biliklər deyil, həm də yüksək davranış mədəniyyəti, gələcək peşəsini daim təkmilləşdirmək bacarığı ortaya çıxan yeni əmək növlərini, ixtisasları qısa zaman müddətində mənimsəmək qabiliyyəti tələb edir. Sadəcə elm və texnikanın inkişaf etdiyi kompüter əsrində təbii ki, bütün bunlar fərqli şəkildədir.

Kompüter əsrində yaşayırıq və məktəblərdə onların kifayət qədər olması təhsilin qarşısında duran ən mühüm məsələlərdəndir. Əfsus ki, məktəblərin bir çoxunda bu fənnin tədris olunduğu fənn kabinetlərinin əksəriyyəti sinif şagirdlərinin sayına uyğun kompüterlə təmin olunmayıbdır. Bu da təbiidir ki, həmin sahə üzrə təhsil alanların kifayət qədər bilgilərə yiyələnməsinə imkan vermir. Məktəb proqramları əsasında İnformatika müəllimləri şagirdlərinə öyrətməli olduqları "Word", "Power-point", "Kodlaşdırma" və bir sıra digər proqramlarını 30 şagirdə 10 kompüter olan kabinetdə mükəmməl öyrədilməsi nə dərəcədə mümkündür? Məktəbdə bu maddi-texniki vasitələrin kifayət qədər olmaması dedikdə əsasən tədrisin aparılmasında mühüm rol oynayan kompüterlərdən əlavə printer, kli-

ker, proyektor, uyğun masa, oturacaq, elektron lövhə və sair bu kimi avadanlıqların olmaması və ya azlığı nəzərdə tutulur.

Məktəblərdə dərnəklərin formal şəkildə mövcudluğu da təhsilin inkişafına, yüksəlməsinə mənfi təsir göstərir. Təbii haldır ki, şagirdlər öz maraqları istiqamətində olan dərnəklərə üzv olurlar. Bununla da onların maraqları üzə çıxır. Belə dərnəklərdə onların yalnız həvəs və marağı deyil, həmçinin bacarıqları da ortaya çıxır, aydınlaşır. Əgər maraq var, lakin bacarıq yoxdursa onda şağirdlərin həmin bacarıqlar üzərində çalışmalarına nail olmaq lazımdır. Yaxud əksinə, bacarıq var, lakin bunu dərk etməyən şagirddə o istiqamətə maraq yoxdursa yenə də məsuliyyət valideynlə yanaşı müəllimin də üzərinə düşür. Məhz dərnək məşğələləri bu işdə şagirdlərə kömək edən, onların düzgün istiqamət seçmələrinə yol göstərən fəaliyyət növlərindən biridir. Odur ki, bu fəaliyyət növünün zəruri proqram və planlı surətdə həyata keçirilməsinə xüsusi diqqət yetirilməlidir. Belə dərnəklərdə peşə təhsili ilə bağlı söhbətlərin aparılması və həmin istiqamətdə müəyyən təcrübi məşğələlərin keçirilməsi gələcəkdə şagirdin hansı peşə sahibi olmasında, özünü dərk etməsində, formalaşmasında mühüm rol oynayır.

Ümumiyyətlə şagird şəxsiyyətinin formalaşması mürəkkəb bir prosesdir. O inkişaf etsə cəmiyyətin yüz illər boyu topladığı mənəvi əmək, estetik mədəniyyət təcrübəsini öz şüur və davranışında getdikcə daha aydın şəkildə əks etdirər, şəxsiyyətin özünü dərk etmə prosesi daha da qüvvətlənər. Şəxsiyyət özünü dərk etdikcə özünü qiymətləndirmə öz hərəkət və davranışına, qabiliyyət və bacarığına, maraq və meylinə qiymətvermə, özünütəyinetmə prosesi yaranır və inkişaf edir. Bu inkişaf yolunda ailə, məktəb və cəmiyyətdən diqqət və məsuliyyət tələb olunur.

Uşaqlarda dərs yükünün çoxluğu və ağırlığı da təlim prosesində şagirdlərin yüksək nəticələr əldə etməsinə mane olan səbəblərdəndir. Belə ki, sinifdə şagird sıxlığı, dərsliklərin material və məlumat ağırlığı, tədris yükünün uşaqların yaş səviyyəsinə uyğunsuzluğu, tədris fənlərinin say çoxluğu, təkrarçılıq xarakterli test tapşırıqları ilə yüklənməsi onların asudə vaxtlarının pozulmasına səbəb olur. Nəticədə şagirdlərin sağlamlığına mənfi təsir göstərir, onlarda təlimə maraq da azalır. Valideynlər evdə, müəllimlər isə məktəbdə oxu-oxu deməklə, oxumasanız siz ya sürücü, ya aşpaz, ya da bərbər olacaqsınız kimi ifadələrlə uşaqlarda həmin peşələr haqqında mənfi fikirlər yaradırlar. Halbuki, məktəblilərin bu ağır durumuna səbəb olan əsas məsələlərə diqqət yetirib, şagirdlərin yükünü azaldaraq onlarda həm təhsilə, həm də peşəyə marağı artıra bilərlər.

Peşələrə marağın azalmasının bir səbəbi də məktəblərdə peşələrin düzgün təbliğ olunmaması və ya onunla bağlı maarifləndirici tədbirlərin keçirilməməsidir. Halbuki, ümumtəhsil məktəblərində peşə təhsili prioritet məsələlərdən hesab olunmalıdır. Bazar iqtisadiyyatı dövründə, rəqabət sisteminin formalaşması və ölkə iqtisadiyyatının inkişafı üçün peşə sahiblərinə ehtiyacın daha çox duyulduğu bir dövrdə peşə təhsilinə münasibət diqqət mərkəzində saxlanılmalıdır. Odur ki, məktəblərdə peşə təhsili ilə bağlı maarifləndirici tədbirlər ardıcıl olaraq planlı, sistemli şəkildə aparılmalı, şagirdlərin tanıdığı və tanımadığı peşələr haqqında geniş məlumat verilməlidir ki, həmin peşələr haqqında onlarda tam təsəvvür yaransın. Hətta müəyyən peşə sahiblərinin qabaqcıl nümayəndələri ilə görüşlərin keçirilməsi daha əhəmiyyətli olur. Şagirdlər bütün suallara cavab alaraq öz fikirlərini formalaşdıra bilirlər. Belə maarifləndirici tədbirlərdə iqtisadi regionlarda kadrların gələcək perspektivləri, iş yerləri və hətta əmək haqqları haqqında da məlumatlar verilir ki, bu da şagirdlərin yaşadığı bölgələrdə mövcud vəziyyətlə tanış olmalarına imkan yaradır. Nəzərə alsaq ki, peşə təhsilinə maraq və hazırlıq uşaqlarda kiçik yaşlarından başlasa da, sonra təhsil ocaqlarında davam etdirilərək, onların həyata və hər hansı bir sənət sahəsinə hazırlamaq mümkündür. Bunun üçün xüsusi, səmərəli vasitə və yollar həyata keçirilməlidir. Bu yollardan biri də məhz məktəblilərin istehsalat sahələrinə tənəzzöh etmələridir. Bu halda şagirdlər bir başa peşə növləri ilə iş şəraitində tanış olur və onların gözü qarşısında peşə sahiblərinin məharəti nümayiş etdirilir. Bununla onlar peşə sahibinin hansı bacarıqlara malik olmasını, hansı keyfiyyətlərə mənsub olmasını görür və müqayisə edirlər.

Bu da məlumdur ki, məktəbli gənclər çox vaxt nəyə qadir olduqlarını düzgün dəyərləndirə bilmirlər. Onların malik olduqları potensial imkanları müəyyənləşdirmək və düzgün istiqamət vermək bilavasitə müəllimlərin vəzifəsidir. Bu da gənclərin formalaşmasında mühüm əhəmiy-

yət kəsb edir. Şagirdlərdə peşəyə meylliyi bir neçə əlamətlə müəyyənləşdirmək mümkündür. Əgər onda hər hansı bir peşəyə maraq, həvəs varsa və həmin peşəyə uyğun bacarıqlara malikdirsə, əməksevərdir və səbirlidirsə, demək onun gələcəkdə yaxşı peşə sahibi olacağına əmin olmaq olar. Başqa sözlə hər bir peşəyə gedən yol hər şeydən əvvəl insanın öz əmək mədəniyyəti ilə açılmalıdır ki, bu da onun əməksevərliyi ilə bağlıdır. Eyni zamanda belə xüsusiyyətlərə malik olan şagirdlərdə peşə etikası, məsuliyyət, nəzakət, təvazökarlıq, tələbkarlıq kimi keyfiyyətlərin də olmasına diqqət yetirmək lazımdır. Göründüyü kimi əmək mədəniyyəti təlim əməyinin yüksək pilləsi olub, özünəməxsus xüsusiyyətlərə malikdir ki, bu da peşə təhsilinə gedən ən uğurlu yoldur. Əmək mədəniyyəti ilə peşəyönümü arasında oxşar və fərqli cəhətlər olsa da peşə təhsilində oxşar cəhətlər mühüm rol oynayır.

Hər hansı bir peşəni mənimsəmiş gənc mənsub olduğu peşəyə uyğun sahədə fəaliyyəti zamanı artıq onlarda özünüinkişaf mərhələsi başlayır və burada onun nəyə qadir və hansı keyfiyyətlərə mənsub olduğu müəyyən edilir. Təbiidir ki, yuxarıda göstərilən keyfiyyətlərə mənsub olan gənc əməyə düzgün münasibət bəsləyər, əmək adamlarına hörmət edər, vaxtını düzgün bölüşdürər və onu dəyərləndirər, hər bir işdə sərf olunan əməyin bütün əziyyət və çətinliklərini bildiyindən əmək adamlarına dəyər verər və onlara daha diqqətlə yanaşarlar. Bütün bunlar peşə sahibi üçün lazım olan mühüm məsələlər və keyfiyyətlərdir. Bunlarla yanaşı nəzərə almaq lazımdır ki, peşə məktəblərində milli prinsiplər də öz əksini tapmalıdır.

Müəllim peşəkarlığına diqqətin azalması da peşə təhsilinə marağın azalmasına səbəb olur. Peşəkar müəllim olmaq üçün müəllimlər öz üzərində daim işləməklə yanaşı işlədiyi təhsil müəssisəsi də onun inkişafı istiqamətində tədrisin və öyrənmənin təkmilləşdirilməsi üçün müvafiq şəraitin yaranmasına imkan yaratmalıdır. Müəllimlərin yeniliklərlə zənginləşdirilmiş proqramlar əsasında təkmilləşmə kurslarından keçməsi üçün əlverişli şərait yaradılmalıdır. Son illər peşə təhsili ilə bağlı islahatlar keçirilmiş və müasir istehsal sahələrinə uyğun yeni proqramlar tərtib edilmişdir. Həmin proqramlar əsasında təkmilləşmə kurslarından keçən müəllimlər yenilikləri öyrənməklə daha peşəkar fəaliyyət göstərə bilərlər. Uzun müddət hər hansı peşə sahəsində müəyyən qədər peşəkarlığı olan müəllimlər belə kurslarda təkmilləşərlərsə daha effektli nəticələr göstərə bilərlər.

Hər bir dövlət iqtisadiyyatı inkişaf etdikcə güclənir, yüksəlir. Onun inkişafı isə bilavasitə təhsillə bağlıdır. Təhsil sahəsində isə istehsal sahələri üçün peşə məktəbləri xüsusi rol oynayır. Ölkədə nə qədər çox peşə məktəbləri olarsa və bu məktəblərdə təhsilin istiqamətləri düzgün müəyyənləşdirilərsə, orda daha əlverişli, gərəkli maariflənmə mövcud olar. Orada daha savadlı, müasir sənaye və digər istehsal sahələrinə uyğun peşə sahibi olan gənc, şəxsiyyət yetişə bilər. Təbii ki, savadlı, elmli peşə sahibləri isə dövlətin gələcəyi deməkdir. Məhz dövlətin sütununu belə şəxsiyyətlər təşkil edir.

**Problemin aktuallığı:** Təhsilin mühüm vəzifələrindən biri də peşə təhsilini gücləndirməklə ölkə iqtisadiyyatının inkişafına və sosial təminatın yaxşılaşmasına nail olmaqdır.

**Problemin elmi yeniliyi:** Müasir peşə növlərinin təlimi üçün müxtəlif metodların tətbiq olunması bu sahədə mütəxəssis kadrların yetişməsində mühüm rola malikdir. Məqalədə kadr hazırlığının bir sıra məqsədləri, metodları qeyd olunub.

**Problemin praktiki əhəmiyyəti:** Bu məqalədən peşə təhsili sahəsində çalışan müəllimlər, bu istiqamətdə tədqiqat aparan, təhsil alanlar bəhrələnə bilərlər.

**Ədəbiyyat:**

1. Müseyib İlyasov “ Peşə ixtisas seçimi”. -Bakı: ADPU-nun mətbəəsi, -2001. -99 s.
2. Müseyib İlyasov “Şagirdlərin peşə seçməyə hazırlanmasının pedaqoji əsasları”. -Bakı: Elm, -2005, -298 s.
3. Mehdi Mehdizadə “Ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi yolları” -Bakı, 1982. -327 s.
4. Əjdər Ağayev “Həyatın astanasında”. -Bakı: Maarif, -1983. -100 s.
5. Hikmət Əlizadə “Peşə təhsilində yaradıcılıq keyfiyyətlərinin inkişaf etdirilməsi yolları”, “ Peşə təhsili və insan kapitalı”. cild 6, №. 1, 2023, -s. 15-20

**E-mail:** zahra.muradova@hotmail.com

**Rəyçi**: *ped.elm.dok.* **M.M. Abbasov,**
**Redaksiyaya daxil olub:** 20.09.2023